2018-ci ilin yanvar-may aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 394 milyon 770 min 400 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 2,4 faiz çoxdur. Tikinti-quraşdırma işlərinə qoyulan vəsait əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,3 faiz artaraq 373 milyon 660 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş vəsaitin 94,7 faizini təşkil edir.

2018-ci ilin yanvar-aprel aylarında muxtar respublikada tikinti sahəsində 10373 nəfər işçi çalışmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2017-ci ilin müvafiq dövrünə nisbətən 1,7 faiz artaraq 455,6 manat olmuşdur.